# Dövlət Mükafatları Komissiyasına

## "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" dördcildlik monoqrafiya

Heydər Əliyevin Azərbaycan dilinin qorunmasına yönələn ideyaları bu gün də ölkə rəhbərliyi tərəfindən qətiyyətlə həyata keçirilir. Elə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" 23 may 2012-ci il tarixli sərəncamı və bu sərən-camın icrası istiqamətində ölkədə aparılan işlər, eləcə də birinci xanım Mehriban Əliyevanın mədəniyyətimizi dünyada tanıtmaq yolundakı çalışmaları buna parlaq sübutdur.

Azərbaycan Tibb Universitetinin III daxili xəstəliklər kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru, AMEA Dilçilik İnstitutunun elmlər doktoru hazirliği üzrə dissertantı Nağdəli Tapdıq oğlu Zamanovun "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" dördcildlik külliyatı 2020-ci il 25 fevralda Azərbaycan Tibb Universitetinin böyük elmi şurası tərəfindən Azərbaycan Respublikasının elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasına (DMK) təqdim olunmuşdur. Aparılan elmi-tədqiqat işinin nəticəsi kimi nəşr olunmuş "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" adlı monoqrafiya 4 cilddən, 63 fəsil və yarımfəsildən, Heydər Əliyev dilində səslənən frazeologizmlərin lüğətindən, bütövlükdə 2040 səhifədən ibarətdir. Bu monoqrafiyaların əsasında akademik Möhsün Nağısoylunun elmi məsləhətçiliyi ilə "Heydər Əliyev nitqinin arxitektonikası, ekspressivliyi və üslubi-qrammatik xüsusiyyətləri" mövzusunda elmlər doktorluğu işini başa çatdırıb.

Dosent Zamanovun universitet əməkdaşlarının, tələbələrinin nitq mədəniyyəti fənni üzrə stolüstü dərsliyinə çevrilmiş bu monoqrafiyaların 2013-cü ildə çapdan çıxmış I cildində Heydər Əliyev nitqlərindəki giriş və sonluqları, nitqin ekspressivliyini gücləndirən nitq ünsürlərini (səmimiyyət, qətiyyət, nikbinlik, proqnozlar, fəlsəfi fikirlər, poetik duyğular), üslubları (elmi, publisistik, məişət, dini) tədqiqata cəlb etmişdir. Dosent Zamanov I cildin I fəslini ulu öndərin Azərbaycan dilinin müdafiəsinə həsr etmişdir. Bu fəsildə müəllif yazır: "Azərbaycan dilinin hakim mövqe tutması yolunda Heydər Əliyev qətiyyəti tam ciddiyyəti ilə işə düşür. Qətiyyətlə dolu ifadələr: "hakim dil etməliyik", öz ana dilini bilməlidir", "səlis danışmalıdır", "bu dili sevməlidir", "mütləq öyrənməlidirlər", "birinci növbədə öz ana dilini bilməlidirlər", "Azərbaycan dilini öyrənin", "öyrənməsiniz işdən çıxaracağam" – dil məsələlərində sərt bəyanat kimi qulaqlarda səslənir, dilimizə ögey münasibət bəsləyənlərə ciddi xəbərdarlıq edilir və bu məsələlərdə Heydər Əliyev xarakteri milyonlara açılır". "Heydər Əliyevin nitqlərində girişlər və sonluqlar", "Heydər Əliyevin nitqlərində məntiqi ardıcıllıq" fəsilləri ilə böyük natiqin nitq arxitektonikasını açıqlaya bilmişdir. Nitqin təsir gücünü artıran, onu yaddaqalan edən bir sıra nitq elementləri- fəlsəfilik, səmimiyyət, qətiyyət, nikbinlik, proqnozlar, poetik duyğular- seçmə misallar gətirilməklə monoqrafiyanı əhalinin bütün təbəqələri üçün oxunaqlı edir.

Monoqrafiyanın III fəslində dosent Zamanov gərgin iş apararaq çıxışların yaddaqalan olmasını təmin edən giriş və sonluqları ictimai-siyasi dövrlərdən, auditoriyaların növündən, zaman və məkandan və s. asılı olaraq araşdırmağa müvəffəq olmuşdur.

Heydər Əliyevin nitqində məntiqi ardicilliq adlı IV fəsildə tədqiqatçı nitqin məntiqi tərəflərinə toxunmuşdur. Müəllifin bu barədə mülahizələri maraqlıdır: "Heydər Əliyev nitqinə daxilən xas olan məntiqi ardıcıllıq müxtəlif üslublarda və müxtəlif çeşidli auditoriyalarda özünü göstərir. Müəllif akademik A.Axundovdan sitat gətirməklə yazır: "Şifahi nitq prosesində ardıcıllığı təmin etmək hər natiqə müyəssər olmur. Bunun üçün təfəkkürdə ardıcıl nitq formalaşdırmaq natiqlik məharətinin mühüm şərtidir". Monoqrafiyanın V fəslində Nağdəli müəllim




Heydər Əliyevin nitqində fəlsəfi fikirləri tədqiqata cəlb edərək ulu öndəri mütəfəkkir-filosof kimi təqdim edə bilmişdir. Heydər Əliyevin nitqində səmimiyyət adlı VI fəslin sonluğunda seçmələr edərək maraqlı bir fəsil ərsəyə gətirməklə səmimiyyətin Heydər Əliyev nitqlərinin nüvəsini təşkil etməsini gündəmə gətirir: "Heydər Əliyevin nitq və çıxışlarında səmimiyyətin üzə çıxmasına yardım edən aşağıdakı ifadələrə rast gəlmək olar: "yaşayışımız çətindir, ağırdır", "iqtisadi vəziyyətimiz ağırdır", "bunları etiraf etmək lazımdır", "mən çox açıq danışan adamam", "mən hər şeyi açıq deyirəm", "heç birimiz həqiqəti inkar etməməliyik", "səhvlər də olacaqdır, nöqsanlar da...".

Səmimiyyətlə yanaşı "Heydər Əliyevin nitqində qətiyyət" adlı fəsildə qətiyyət araşdırılmışdır. Müstəqilliklə bağlı verdiyi bəyanatlarda Heydər Əliyevin qətiyyəti aydın şəkildə, sərt çalarlarla, geridönməz xarakterlə auditoriyalara çatdırılır. "Heydər Əliyevin nitqində nikbinlik" adlı VIII fəsildə ölkənin ən ağır hallarında nikbinliyini itirməyən dövlət başçısının nitqlərini araşdırma mövzusuna çevirə bilmişdir.

Siyasi natiqin, dövlət rəhbərinin nitqlərinin bir gücü də proqnostik fikirlərin çıxışlarda özünə yer almasıdır. Məhz IX fəsildə bu məsələlər ətraflı şəkildə öz əksini tapmışdır: "Heydər Əliyevin proqnostik nitqlərində ən çox işlətdiyi ifadələr:– Mən inanıram ki, vaxt gələcək...– Mən bu günü düşünürdüm... – "Mən heç vaxt yalnız bu günü düşünərək yaşayıb, işləməmişəm. 70-ci illərdə də mən bu günü düşünürdüm". – Bu gün də gələcəyi düşünürəm – "Demək istəyirəm ki, mən o vaxt da bu günü düşünmüşəm. Bu gün də gələcəyi düşünürəm". – "Bütün bunlar tədricən həyat səviyyəsinin yaxşılaşmasına gətirib çıxaracaqdır. Qəti gələcək zamanda səslənən yuxarıdakı proqnostik fikirlər daim öyrənilməli, araşdırılmalı, həyatımızın bütün sahələrində öz tətbiqini tapmalıdır". Monoqrafiyanın X fəsli "Heydər Əliyevin nitqində poetik duyğular"a həsr olunmuşdur. Poetik duyğular bəzən Azərbaycan şairlərinin şeirləri ilə auditoriyalara ayaq açır.

Elmi terminologiyalarla auditoriyalara yol açan, məntiqi təfəkkürə söykənən, ümumiləşdirmələrə və nəticələrə gətirib çıxaran elmi üslub ilk dəfə Nağdəli müəllim tərəfindən Heydər Əliyevin nitqində araşdırılmışdır. Bu üslub Heydər Əliyevin beynəlxalq konfranslardakı, sessiyalardakı çıxışları əsasında öyrənilmiş, digər üslublarla əlaqəyə diqqət yetirilmşdir. Elmi üslubun tələb etdiyi iri, mürəkkəb cümlələr Heydər Əliyev nitqində də özünü bariz şəkildə göstərir. Lakin bu cüm-lələr sadəcə elmi üslubun tələb etdiyi kimi iri cümlələr yox, sinonimlərlə, təkrarlarla, frazeoloji birləşmələrlə və ədatlarla qüvvətlənən iri cümlələrdir.

Bu cilddə müəllif eləcə də üslublara ciddi əhəmiyyət verir. Heydər Əliyevin nitqlərinin təküslubluğa sığmadığını, müxtəlif üslubların harmoniyasından ibarət olduğunu göstərə bilmişdir.

Məişət üslublu çıxışlarda Heydər Əliyev dühasının bir çox xarakterləri xalq üçün, millət üçün açılmış olur. Dini üslubla bağlı XIV fəsildə müəllif yazır: "Din ocaqlarında, dindarlar qarşısında çıxış və nitqlərə imkan verilmədiyi sovetlər dövründə dini üslubdan danışmaq, təsnifatlarda dini üslubu ayırmaq mümkünsüz idi... Heydər Əliyevin dini üslubdakı çıxışları dövlətçilik elementləri ilə zəngindir. Gənc nəslin dövlətçilik ideyalarını mənimsəməsində, dini inancların dövlətçilik ilə harmoniyasını yaratmaqda bu üslub çox dəyərlidir".

2014-cü ildə işıq üzü görmüş monoqrafiyanın II cildində dosent Zamanov tərəfindən ulu öndərin çıxışlarında əsas və köməkçi nitq hissələrinin, eləcə də frazeoloji birləşmələrin, sinonimlərin üslubiyyat yaratmasını ciddiyyətlə araşdırılmışdır. Əsas nitq hissələri arasında saylar Heydər Əliyevin dilində quru rəqəmlər olmaqdan uzaqlaşaraq üslubi keyfiyyət qazanır. Müəllif Heydər Əliyevin öz ecazkar nitqləri ilə əvəzlik nitq hissəsinin yaratdığı üslubi-semantik xüsusiyyətləri aşağıdakı kimi təqdim edir: "Müəyyən şəxs əvəzliyi "mən" Heydər Əliyevin nitqində ölkənin birinci şəxsinin məsuliyyəti təkbaşına üzərinə götürdüyü məqamlarda daha çox işlədilir; "Biz" şəxs əvəzliyi böyük natiqin dilində məsələlərə müəyyənlik, aydınlıq gətirməklə yanaşı "bir olmaq", "yaxınlaşmaq", mənalarında işlənərək auditoriyalarda doğmalıq hissləri yaradır. "Sən" müəyyən şəxs əvəzliyini Heydər Əliyev özünə doğma hesab etdiyi görkəmli elm, mədəniyyət, ictimai-siyasi xadimlərlə olan görüşlərdə teztez işlədir. Üçüncü şəxsin təki "o", cəmi "onlar" əvəzlikləri Heydər Əliyev nitqlərində müstəqilliyimizə qənim kəsilən qüvvələrə qarşı, xarici təcavüzkar dövlətlərin rəhbərlərinə qarşı münasibətdə cox işlədilir; İnkar əvəzlikləri böyük natiqin çıxışlarında müstəqilliyimizin təsdiqi kimi səslənir və bu zaman müəyyən şəxs əvəzlikləri ilə, eləcədə təyin əvəzlikləri ilə harmoniya yaradır".

"Heydər Əliyevin nitqində feil" fəslində dosent Zamanov feilin zamanlar üzrə, şəkillər üzrə yaratdıqları üslubi imkanları, eləcə də feilin lüğəvi mənalarını araşdırmışdır ki, bu da böyük natiqin zaman uzlaşmalarına ciddi diqqət yetirməsi ilə bağlıdır. Heydər Əliyevin nitqlərinin əsasında təfəkkür və nitq feilləri durur ki, bu da təfəkkür və nitq proseslərinin vəhdətindən xəbər verir. Qəti gələcək zamana Heydər Əliyevin müstəqillik yolunda geri çəkilməyin mümkünsüz olduğu çıxış və nitqlərində daha çox təsadüf edir.

Müəllifin apardığı işin əsas, ana məzmunu ondan ibarətdir ki, ilk baxışda çox da semantik məna daşımayan nitq hissələrini, o cümlədən zərflərin ulu öndərin nitqlərində üslubiyyat yaratmasını tədqiqata cəlb edərək maraqlı fikirlər ortaya qoya bilmişdir. Həmin yekun müddəalarla tanış olmaq yerinə düşər: Zərflər Heydər Əliyevin nitqində frazeoloji birləşmələrlə müştərək işlənərək onun nitqini cazibədar edir; Heydər Əliyevin həyatda tutduğu mövqe ilə nitqlərində işlətdiyi zərflər arasında dialektik vəhdət mövcuddur; Tərzi-hərəkət zərfləri böyük natiqə fikrini səlis və gözəl ifadə etməyə imkan verir, nitqin dinamikliyini təmin edir; Biri şəkilçi qəbul etmiş eyni sözlərin təkrarı ilə yaranan mürəkkəb tərzi-hərəkət zərfləri içərisində Heydər Əliyevin nitqində tez-tez müşahidə etdiyimiz "yan-yana", "üz-üzə"dir. Bu bir daha böyük natiqin xalqı ilə üz-üzə olmaqdan şərəf duyduğunu göstərir; Zamanla, vaxtla işini uyğunlaşdıran, zamana və vaxta qiymət qoyan Heydər Əliyevin nitqlərində zaman zərflərinin yeri həmişə var; Başqa bir mürəkkəb zaman zərfi "gecə-gündüz" böyük natiqin dilində bir sıra həyati vacib məsələlərin həlli yolunda çalışmağı ifadə edir.

*(Davamı 6-cı səhifədə)*

# “Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti” dördcildlik monoqrafiya

## Dördcildlik monoqrafiya

*(Əvvəli 4-cü səhifədə)*

Dosent Zamanovun monoqrafiyasının II cildində II fəsil “Heydər Əliyevin nitqlərində köməkçi nitq hissələri” adlanır. Müəllif II fəslin girişində təsadüfən yazmır: “Heydər Əliyevin nitqlərinin tədqiqi belə bir fikir söyləməyə əsas verir ki, ulu öndərin nitqlərində ekspressivlik qazandırmaq, əlvanlıq yaratmaq baxımından əsas və köməkçi nitq hissələri arasında xüsusi bir sədd yoxdur”.

Azərbaycan siyasi natiqliyinin banilərindən biri hesab olunan Heydər Əliyevin nitqini ədatlarsız təsəvvür etmək mümkünsüzdür. Mənaca müxtəlif olan ədatların Heydər Əliyevin nitqində yerini müəyyənləşdirmək, onların bir-biri ilə münasibətini açıqlamaq Nağdəli müəllimə nəsib olmuşdur.

Onun modal sözlərlə bağlı bir neçə fikrini səsləndirmək yerinə düşər: “Modal sözlər içərisində “təəssüf ki”, “təəssüflər olsun ki” kimi mürəkkəb modal sözlər Heydər Əliyev nitqində cəmiyyətdə müxtəlif sahələrdəki çatışmazlıqlar, nöqsanlar, cəmiyyətə zidd hərəkətlər müşahidə edildədə işlənir; “Zənnimcə” modal sözü Heydər Əliyevin nitqində gələcəyə yönələn elmi fikirlərin auditoriyaya izahı ilə bağlı məqamlarda öz yerini tapır; Natiqlik sənətində hadisələrə natqin öz baxışlarını şəxsi fikirlərini bildirən “zənnimcə”, “fikrimcə” modal sözləri Heydər Əliyev nitqlərini də tərk etmir”.

Dosent Zamanovun təkcə sinonimlərlə bağlı irəli sürdüyü müddəalar gələcəkdə sinonimlərlə bağlı elmi-tədqiqat işləri aparmaq niyyətində olan tədqiqatçılar üçün xüsusi əhəmiyyət kəsb edir. “Heydər Əliyevin nitqində sinonimlər” fəslində müəllif nitqin semantikasını gücləndirən, xəlqiliyə söykənən sinonimlərlə bağlı dəyərli fikirləri aşağıdakı müddəalarla yekunlaşdırmışdır: “Heydər Əliyevin nitq və çıxışlarının təhlili göstərir ki, dilimizin, nitqimizin inkişafı ilə bağlı istifadə edilən sinonimlər həmişə cazibə gücünü özündə saxlayır; Sinonim cərgələr əksər vaxtlarda böyük natiqin çıxışlarının giriş hissələrinə təsadüf edir. Auditoriya elə giriş hissədə Heydər Əliyevin nitq cazibəsinə düşür; Heydər Əliyevin çıxışlarında özünəməxsus sinonimlər üzə çıxır ki, bu Azərbaycan dilinin sinonimlər yaratmaq imkanının genişliyini bir daha göstərir; Heydər Əliyev nitqində səslənən sinonimlərin bir məziyyəti, bir özünəməxsusluğu ondan ibarətdir ki, sinonimin ikinci və üçüncü tərəfləri izah xarakterində olur.

Müasir etika və estetikanın nüvəsini Heydər Əliyev dilində “mənəviyyat” və “hissiyyat” təşkil edir desək heç bir yanlışlığa yol verməri. Müəllif böyük natiqin dilində şifahi, spontan söylənilən etik və estetik mətnləri araşdırma obyektinə çevirmişdir. Necə deyərlər, müəllifin özü demiş şifahi, spontan söylənilən nitqlərdə etik və estetik mətnləri dinləyici şüuruna çatdıra bilmək Heydər Əliyev dühasına xasdır.

Akademik Nizami Cəfərov monoqrafiyanın III cildinə yazdığı ön sözdə bu barədə yazır: “Dosent Zamanov etika və estetikanı siyasi lider nitqində haqlı olaraq ümumfəlsəfi qanunlara tabe olan ayrı-ayrı fənlər səviyyəsində təqdim edə bilib. Etik dəyərləri araşdırarkən müasir etikanın tələblərinə uyğun olaraq monoqrafiyada Heydər Əliyevin nitqində dil etikası, dini etika, təhsil etikası, tibbi etika, ekoloji etika, etika və siyasət, hüquqi etika kimi fəsillərə ayırır. Maraqlısı odur ki, bütün bu “etikalar”ın sadə, anlaşıqlı bir dildə auditoriyalara çatdırılması müasir Azərbaycan dilinin imkanları hesabına araşdırılır.

Monoqrafiyanı iki böyük hissəyə bölən müəllif “Etika” bölməsində Aristotelin, Kantın etik kredolarını sadalayır, sonra Heydər Əliyevin insanlığa münasibətdə etik kredosu sayılan aşağıdakı ifadələri işlədir: “Biz dünyəvi dəyərlərlə yaşamalıyıq. Amma eyni zamanda biz öz milli-mənəvi dəyərlərimizi itirməməliyik, onları yaddan çıxarmamalıyıq. Onları bizim millətimizə yad olan hansısa dəyərlərlə əvəz etməməliyik; Həyatın mənası ondan ibarətdir ki, dünyaya gələn, böyüyən, ərsəyə çatan hər bir uşaq, həyat fəaliyyətinə başlayan insan cəmiyyətə, millətə, ölkəsinə, vətəninə layiqli xidmət etsin, fayda versin; Əgər insan öz fikirlərinə sadiq olmasa, öz ideyasına inanmasa və öz ideyasının həyata keçməsi üçün vuruşmasa, savaşmasa, mübarizə aparmasa, o, qalib gələ bilməz; Bir şey ədalətsizliklə olubsa, ədalətsizliklə ədaləti bərpa etmək olmaz. Ədaləti bərpa etmək lazımdır; Qanunsuzluğu aradan qaldırmaq lazımdır. Qanunsuzluğa qanunsuzluqla cavab verməк lazım deyil; Bəli, insan çox şeyə qadirdir. İnsan nikbin olmalıdır. İnsan nə qədər çətinliklərlə rastlaşsa da, öz istedadını, öz biliyini, öz bacarığını cəmiyyətə təqdim etməlidir, cəmiyyətə, ölkəsinə həsr etməlidir.

Bütün bu dəyərləri müasir dilçilik baxımından, Azərbaycan dilinin imkanları hesabına araşdırmaq müəllifdən böyük zəhmət tələb edib. Bütünlüklə Heydər Əliyev külliyatını araşdırmaq kimi məsuliyyət tələb edən bu ciddi monoqrafik işi araya-ərsəyə gətirmək dosent Zamanova nəsib olub.

“Heydər Əliyevin nitqində dil etikası” yarımfəslində dilə sevgi, dil siyasəti, dilə məsuliyyətlə yanaşma, dilə münasibətdə əxlaqi məsələlər, Azərbaycan auditoriyasında və soydaşlar auditoriyasında dil, Ana Dilinin tədrisinə münasibət, dillə bağlı üslublar, dil varisliyi, dilə biganəlik hallarına qarşı mübarizə, təfəkkür-dil əlaqəsi və s. araşdırma mövzusu olmuşdur.

“Heydər Əliyevin nitqində tibbi etika” fəslinə xüsusi yer ayrılması monoqrafiyaların müəllifinin həkim olması ilə bağlıdır. Bu fəsildə Heydər Əliyevin tibbi deontologiyaya dərindən bələdliyi açıqlanır. Ailə üzvlərinin həkimlik fəaliyyəti ilə məşğul olması (görkəmli ictimai-siyasi dövlət xadimi, professor Əziz Əliyev, akademik Zərifə xanım Əliyeva, professor Tamerlan Əliyev, akademik cəmil Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva , professor Tamfira Əliyeva və başqaları), SSRİ miqyasında səhiyyə sahəsini kurasiya etməsi bu şərtlərdəndir.

Ədəbiyyatımızla bağlı, estetik dünyagörüşümüzün formalaşması yolunda müəllif Azərbaycan siyasi və bədii təfəkkür insanlarını bir araya gətirə, əsərini oxunaqlı edə bilir.

Estetikaya dair məsələlər öz həllini III cildin II fəslində tapmışdır. Müəllif yazır: “Ulu öndərin nitqlərinə baxış zamanı nitqin məzmununu maraqlı edən, nitqin ekspressivliyini yüksəldən estetik mətn parçalarının kifayət qədər çoxluğu tədqiqatın aparılmasına təkan verdi. Məhz bu niyyətlə də II fəsildə Heydər Əliyev nitqlərində estetik dəyərlərin öyrənilməsini qarşımıza məqsəd qoyduq. Bu zaman həm estetik kateqoriyaları (gözəllik, faciəvilik, komiklik), həm də incəsənətin müxtəlif növləri haqqında Heydər Əliyev fikirlərinin araşdırılmasına çalışdıq. Estetik zövqün inkişafında incəsənətin rolu əvəzolunmazdır ki, biz Ulu Öndərin tez-tez incəsənət xadimləri ilə görüşlərdə söylədiyi çıxışlar əsasında bu rolu öyrənməyə çalışdıq.

Heydər Əliyevi estetlərin toplaşdığı auditoriyanın aparıcı mütəxəssis-alimi kimi görürük. Bu özünü incəsənət xadimlərinin fəaliyyəti ilə bağlı çıxışlarda daha da bariz göstərir.

Monoqrafiyada Nağdəli müəllimin müasir estetikanın problemlərinə dərindən bələdliyi üzə çıxır. Dünya estetlərinin estetik dəyərlərə verdiyi qiyməti bir-bir incələyir, onlardan sitatlar gətirməklə öz əsərlərini zənginləşdirir.

Sonda düşünürəm ki, dosent Zamanovun Heydər Əliyevin nitqində müxtəlif incəsənət növlərinin (bədii ədəbiyyat, rəssamlıq, musiqi, memarlıq, teatr, kino) estetik dünyagörüşümüzdə ki rolunu aydınlaşdıran fikirlərinə münasibət ayrıca bir məqalə kimi nə vaxtsa oxucuların ixtiyarına veriləcək.

Müəllifin monoqrafiyasının IV cildində Ulu Öndərin nitqlərində frazeologizmlərin araşdırılmasına diqqət yetirilmişdir. Akademik Nizami Cəfərovun ön sözü ilə başlayan bu cilddə frazeologizmlərin araşdırılmasına yeddi fəsil həsr olunmuşdur ki, bu fəsillər novatorluğu ilə nitq mədəniyyətimizin inkişafına mühüm töhfədir. “Heydər Əliyev xarakteri frazeologizmlərdə” fəsli xüsusi bir maraq kəsb edir. Müəllif təsadüfən yazmır ki, görkəmli söz sənətkarlarının xarakteri onların əsərlərindəki frazeologizmlərlə səciyyələnə bilər. Dosent Zamanovun təkcə somatik frazeologizmlərlə bağlı iqtibas etdiyi ədəbiyyatın çoxluğu onun monoqrafiyanın yazılmasındakı ciddi məsuliyyət hissindən xəbər verir.

Monoqrafiyada diqqət çəkən ən vacib məqam siyasi natiq dilində səslənən frazeologizmlərin lüğətinin tərtibidir. Lüğətdə frazeologizmlərin mənasının aydın olması üçün müəllif onları cümlə şəklində vermişdir. Hər bir frazeologizmin izahı ilə yanaşı onun siyasi səhnədəki mənası da ayrıca açıqlanmışdır.

Ən maraqlı fəsil kimi “Heydər Əliyevin nitqindəki mətnlərdə frazeologizmlərin yeri” elmi cəhətdən aktualdır. Müəllif mətnin məzmunu ilə frazeologizmlər arasındakı dialektik vəhdəti verməyə müvəffəq olmuşdur. Tədqiqatçı göstərir ki, mətnin sonunda səslənən frazeologizmlər bütöv bir mətnin yekununa- “möhürbəndinə” çevrilir. Bəzən də bu frazeologizm mətnin başlanğıcında özünə yer alır, mətn boyu öz izahını, şərhini tapır.

Nitqin ekspressivliyini yüksəltmək yolunda frazeologizmlər müstəsna rol oynayır. Məhz xalqın milli ruhunu daha çox əks etdirən frazeologizmlər nitqin müxtəlif üslublarında öz yerini tapır. Müəllif “Müstəqilliyimiz əbədidir” seriyası adı altında Ulu Öndərin 45 cilddə toplanmış nitq, çıxışların içərisindən frazeologizmləri seçmək kimi gərgin işin öhdəsindən uğurla gəlmişdir.

Dosent Zamanov feilin lüğəvi mənaları (təfəkkür, nitq, hərəkət, emosional, psixik və s.) əsasında formalaşan frazeologizmləri ayrıca təsnif etmiş, mətnlərdən seçə bilmişdir.

Ən maraqlı fəsil kimi “Heydər Əliyevin nitqindəki mətnlərdə frazeologizmlərin yeri” elmi cəhətdən aktualdır. Müəllif mətnin məzmunu ilə frazeologizmlər arasındakı dialektik vəhdəti verməyə müvəffəq olmuşdur. Tədqiqatçı göstərir ki, mətnin sonunda səslənən frazeologizmlər bütöv bir mətnin yekununa - “möhürbəndinə” çevrilir. Bəzən də bu frazeologizm mətnin başlanğıcında özünə yer alır, mətn boyu öz izahını, şərhini tapır.

Frazeologizmlərə həsr olunmuş fəsillər, ən başlıcası Heydər Əliyev dilində yer alan frazeologizmlərin lüğəti filoloqlar üçün, diplomatlar üçün, ümumiyyətlə nitq təcrübəsi ilə məşğul olan hər bir şəxs üçün dəyərli vəsaitdir.

İndiyədək monoqrafiyaya 37 müsbət mütəxəssis rəyi verilmişdir. Müəllif 10 dekabr 2015-ci ildə AMEA-nın Rəyasət Heyətində “Heydər Əliyev və natiqlik sənəti” mövzusunda məruzə etmişdir. Monoqrafiyalara Aşıq Şəmşir Mədəniyyət Ocağı İctimai Birliyində (14.06.2013), AMEA-da (04.03.2014), ATU-da (01.12.2015), ATU-da (16. 05. 2016), 2 saylı Bakı Baza Tibb Kollecində (13. 05.2016) təqdimatar keçirlmişdir. Monoqrafiya Təhsil nazirliyi tərəfindən ali məktəblərin birinci kurslarında “Nitq mədəniyyəti” fənninin tədrisi üçün dərs vəsaiti kimi tövsiyə olunmuşdur.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin sədri olduğu böyük elmi şuranın Nağdəli Zamanovun dördcildlik külliyatını yekdilliklə Dövlət Mükafatına təqdim etməsi Ulu öndərə sayğı və müəllifin son 10 ildəki gərgin əməyinə verilən qiymətdir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Mükafat Komissiyası bu kompleks işi layiqincə dəyərləndirəcək.

***Natəvan HACIYEVA,***
***Azərbaycan Tibb Universitetinin Azərbaycan dili kafedrasının müdiri, professsor, filologiya elmləri doktoru***